# ŞAH İSMAYIL DÖVRÜ - BƏDİİ SƏNƏTKARLIQ

***Rasim ƏFƏNDt***
***(Azərbaycan)***



Şah İsmayıl Xətainin hakimiyyəti illəri bədii sənətkarlığın ən zəngin və inkişaf et-miş dövrlərindən sayılır.

Bu zaman Səfəvilər dövlətinin demək olar ki, bütün yerlərində çoxlu toxucu, zər-gər, silah düzəldən, misgər, dulusçu, boyaqçı və başqa sənətkarlar çalışırdılar. Onların ha-zırladıqları mə'mulat ölkədən çox-çox uzaq-larda şöhrət qazanmışdı.

Şəher sənətkarları həm sərbəst olaraq, həm də feodalların e'malatxanalarında işlə-yirdilər. Müstəqil sənətkarlann rolu bu dövr-də xeyli artmışdı. Onlar Qərbin sex təşkilatlarma oxşayan peşəkar sənətkarlar şəklində birləşmişdilər.

Bu dövrdə düzəldilən qab-qacaq, silah, zərgərlik nümunələri, to-xunan xalça, parça, tikilən geyimlər adi məişət əşyası deyil, yüksək incəsənət əsəri xarakteri daşıyırdı. Çünki bunların yaranmasında zə-manəsinin görkəmli rəssamları (Sultan Məhəmməd, Ağa Mirək və b.) yaxmdan iştirak edirdilər. Bu dövrdə yaradılmış bir çox parça, tikmə, xalçaların üzərində dövrün görkəmli rəssamlarmın miniatürlərindən götürülmüş motiv və süjetlərə təsadüf edilir. Araşdırmalar göstərir ki, XVI yüzilə aid edilən sənət abidələri kor-korana hazırlanmırdı. Onla-rın forması, üzərindəki bəzəklərinin məzmunu və texniki icrası xüsusi qayda-qanunlar əsasında görülürdü. Bu qayda-qanunlar həmin dövrdə yaradılmış xüsusi risalələrdə öz əksini tapmışdır. Belə risalələrdən birinin müəllifi görkəmli Azərbaycan rəssamı Sadiq bəy Əfşardır. Sə-nətkarlığın, eləcə də onun əməli məsələlərinə həsr edilmiş yüksək nəzəri risalələrin meydana çıxmasında qüdrətli dövlət xadimi Şah İs-mayılın rolu az olmamışdır. Çünki o, elmin və incəsənətin himayəçisi sayılırdı. Şah İsmayıl dövründə sənətkarlığın demək olar ki, mə4um olan bütün növləri inkişaf etmişdi. Lakin onlardan biri - toxuculuq Sə-fəvi dövlətinin hüdudlarını aşaraq, beynəlxalq mahiyyət kəsb edirdi. Səbəbsiz olmayaraq onların bir çox gözəl nümunələri hazırda Ameri-ka, Avropa, Asiya, Afrika qif ələrində yerləşən muzeylərdə nümayiş etdirilir.

Bədii parça və xalçalar bu dövrdə əsas etibarilə Təbriz, Ərdəbil, Şamaxı, Gəncə və Qarabağda istehsal olunurdu. Səfəvilər dövründə İranda və Azərbaycanda olmuş ingilis, fransız səyyahları A.Cekinson, T.Olkok, Ş.Şarden və b. burada yüz növdən artıq müxtəlif parçaların toxunduğunu qeyd edirlər.

Bu dövr toxuma malların belə geniş şöhrəti təkcə onların toxunu-şunda və ya davamlı olmasında deyildi. Bu sənət əsərlərinin qiymətli cəhəti bir də ondan ibarət idi ki, bədii xüsusiyyət daşıyan naxışlarla bəzənir və çox vaxt daha gözəl görünmək üçün həmin naxışlann ara-sında klassik şairlərin əsərlərindən alınmış obrazlar təsvir edilirdi.

XVI yüzil toxuma mə'mulatların ən qiymətli məziyyəti süjetli parçalarda öz əksini tapmışdır. Qeyd olunanları hazırda Moskvada Kremlin Silah palatasında saxlanılan süjetli parça əyani olaraq təsdiq edir. Vaxtilə ras şahzadəsi İvan İvanoviçin üst geyimini təşkil edən bu parça üzərində ardıcıl olaraq bir neçə dəfə təkrar olunan böyük bir da-şı iki əllə yuxarı qaldıraraq ağaca tərəf yaxınlaşan əjdaha üzərinə at-maq istəyən bir gəncin təsviri verilmişdir. Bundan əlavə kompozisiya-da ağacda öz yuvası yanında oturub bu hadisəyə həyacanla tamaşa edən bir quş rəsmi də verilmişdir. Parça üzərindəki bu təsvirləri Niza-mi Gəncəvinin "Yeddi gözəl" poemasında Bəhram Gurun əjdahanı öl-dürməsi, "Məlik Məhəmməd nağılında Məlik Məhəmmədin əjdahanı öldürüb Simurq quşunun balalarım xilas etməsi epizodlan ilə bağla-maq olur.

Parçalar üzərində tək folklor və klassik ədəbiyyatdan götürülmüş səhnələr deyil, həmin dövrün həyat və məişətini əks edən epizodlar da əks olunurdu. Buna misal mahud üzərində tikmə üsulu ilə bəzədil-miş dəbdəbəli bir ziyafəti əks edən süjetə nəzər yetirək.

XVI yüzilliyin əvvəllərində Təbrizdə hazırlanmış, hazırda Buda-peştdə Dekorativ Sənətlər muzeyində saxlanılan bu əsərdə Amerika alimi Fillis

* Dr., Professor of the Azerbaijan Academy of Sciences, Director of the Institute of Architecture and Art of the same Academy.

Akerman və macar sənətşünası Karrol Qomboşun verdiyi məMumatlara görə burada Şah İsmayıl başda olmaqla verilən ziyafət-dən bəhs olunur.

Kompozisiyanın əsas hissəsində hündür və gözəl bir taxt üstündə oturmuş gənc surəti təsvir edilir. Gənc əyninə qısa qollu xalat geymiş, başına isə "qızılbaşlara" məxsus qülləli qırmızı başlıq qoymuşdur. Başlığın yan hissəsində onun yüksək rütbəyə mənsub olduğunu bildi-rən nişanə - lələk sancılmışdır. Gəncin qarşısında diz çökərək ona boşqabda nar və şərab təklif edən qız təsvir olunmuşdur. Bədii parça-nın aşağı hissəsində bir-biri ilə bağlı olan bir neçə süjetli epizodlar əks etdirilmişdir. Həmin epizodlardakı musiqiçilərin, süfrəçilərin və şərab içənlərin təsvirləri xüsusilə canlı verilmişdir.

Parçada təsvir olunan fıqurlara ümumi diqqət yetirsək, burada 180 insan, heyvan, quş rəsminin olduğunu görərik, bu da nəinki parça üçün, hətta miniatür sənəti sahəsində də çox əlamətdar bir hadisədir. Bu bədii əsərin yaranmasına şübhəsiz həmin dövrün rəssamlıq sənəti, yə'ni miniatürləri böyük tə'sir göstərmişdir. Bunu biz XVI yüzil Təb-riz miniatürləri ilə müqayisədə xüsusilə aydm görə bilərik. Əgər hə-min dövrdə yaradılmış "Şahzadə saray məclisində" miniatürünə nəzər salsaq, burada da eyni tərzdə oturmuş şahzadəni və qarşısmda diz çö-kərək ona boşqabda nar təklif edən gəncin təsvirini və s. görərik.

XVI yüzildə xalq arasında ən geniş yayılmış sənətlərdən biri də xalçaçılıq idi. Səyyahların verdiyi mə'lumatlara görə bu dövrdə xalça-çılıq sənəti o qədər inkişaf etmişdi ki, şəhərlərdə xarici bazarlar üçün xalça toxuyan xüsusi karxanalar təşkil olunmuşdur. İngilis diplomat və tacirləri bu zaman ən nəfıs xalçaların Təbriz və Şirvanda toxunduğunu qeyd edirlər. Onların Şamaxıda olduqlan vaxt qızıl-gümüş saplarla to-xunan nadir xalçalar haqqında ingilis kraliçası Yelizavetaya verdiyi mə'lumat da maraqlıdır. Sənətşünaslar XVI yüzili Səfəvi xalçaçılıq sənətinin "qızıl dövrü" adlandırırlar.

Səfəvilərin hakimiyyəti dövründə xüsusilə Təbrizdə toxunan xalı-lar təkcə İranda, Azərbaycanda deyil, Yaxın və Orta Şərq ölkələrində, hətta Avropada da məşhur idi. Araşdırmalar göstərir ki, Təbriz toxucu-ları bu dövrdə Türkiyə, Əfqanıstan, Hindistanda öz bacarıqlarını ver-mək üçün də'vət olunmuşdular.

Xarici səyyahların verdiyi məlumatlara görə ən gözəl xalıları məscidlərə nəzir verərdilər. Xüsusilə Təbriz məscidləri xalı ilə dolu idi.

Mənbələr göstərərir ki, bu dövrdə toxunan bə'zi nümunəvi xalça-lann yaradılmasmda yalnız toxucu deyil, onunla birlikdə dövrün ən görkəmli rəssamları da iştirak edirdilər. Belə rəssamlardan biri Soltan Məhəmməd olmuşdur.

Bu dövr Azərbaycan xalçaları məzmun etibarijə də çox rənga-rəng və mürəkkəb olmuşdur. Onların üzərində insan, heyvan rəsmləri, gül-çiçək naxışları ilə yanaşı əsl mə'nada real səpgidə toxunmuş süje-tli kompozisiyalara da rast gəlinir. Süjetli xalılar arasında "Dörd fəsil, "Ovçuluq, klassik Şərq poemalanndan götürülmüş səhnələr və saray həyatından bəhs edən epizodlar əsas yer tuturdu.

Belə süjetli xalıların bir çox gözəl nümunələri hazırda Vaşinqton, London, Paris, Budapeştdə yerləşən dünyanın ən görkəmli muzeylə-rində nümayiş etdirilir.

Budapeştin Dekorativ Sənətlər muzeyində saxlanılan süjetli xalı bizim üçün xüsusilə maraqlıdır. Çünki bu xalının süjeti yuxarıda bəhs etdiyimiz parçanın süjetini elə bil ki, təkrar edir.

Aparılmış elmi araşdırmalara görə XVI yüzilliyin əvvəllərində Təbrizdə toxunmuş bu xalçada da parça üzərində tətbiq olunmuş süje-tə bənzər saray həyatından götürülmüş ziyafət təsvir edilmişdir. Kom-pozisiyanın mərkəz hissəsini burada da dəbdəbə ilə bəzərimiş taxtda oturmuş gənc təşkil edir. Qızılbaşlara məxsus zəngin libas geymiş gənc sağ əlini qaldırıb elə bil ki,

nitq edir. Gənci əhatə edən ə'yan və saray xidmətçilərinin diqqəti bütünlüklə onda cəm olmuşdur.

Bu xalım araşdıran Amerika və Azərbaycan alimlərinin fikrincə burada da,Şah İsmayıl və ya onun oğlu Təhmasib təsvir olunmuşdur.

Şah İsmayılın adı ilə bağlı olan xalçalar bu dövrdə daha çox nəbati ornamentlərlə bəzədilirdi. Gül-çiçək, budaq, ağac Unsürlərinin birləş-məsindən əmələ gələn omamentlər xalça üzərində nisbətən səthi üs-lubda verilsə də, burada dövrün ərTənəvi nəbati bəzəklərindən olan sərv, nar, ərik ağaclarının, lalə, qızılgül, qərənfil, nərgiz və s. güllərin təsvirlərini asanlıqla seçə bilirik.

Bu dövrün omamental xalçaları arasında 1530-cu ildə Ərdəbildə Şeyx Səfı məscidi üçün toxunmuş və indi Nyu-Yorkda Metropoliten muzeyində saxlamlan xalını, yenə həmin məscid üçün toxunmuş və hazırda Londondakı Viktoriya-Albert muzeyində olan xalını və s. gös-tərmək olar.

Bu dövrdə yaradılmış xalılar içərisində elm aləmində "Şeyx Səfı" adını almış xalını xüsusi qeyd etmək lazımdır. Mənbələr göstərir ki, bu xalı vaxtilə "Şeyx Səfı" məqbərəsində saxlanılmışdır. Yerli ha-

kimlər bu nadir sənət əsərini "Şeyx Səfi" kompleksinin uçulub dağıl-mış hissələrini tə'mir etmək üçün 1883-cü ildə Təbrizdəki Seqler in-gilis şirkətinə satırlar. Beləliklə, xalı şirkət vasitəsilə alınaraq Londo-na göndərilir. Burada o bir müddət Ven Sen Rabinson şirkətində qalır və ilk dəfə olaraq bu şirkət vasitəsilə Londonda nümayiş etdirilir. Elə oraua da ona 250 funt sterlinq qiymət qoyulur. Bir müddət keçdikdən sonra bu xalım xalqdan yığılan pulun hesabına (1893-cü ildə) Viktori-ya və Albert muzeyinə alırlar.

Hələ o vaxtlar Londonda çıxan "Qardiyan" qəzeti bu xalını dünya-da indiyə qədər qalan xalılann ən gözəli adlandırmışdır.

"Şeyx Səfi" xalısı özünün nadir bəzək kompozisiyası, omament motivlərinin orijinallığı və tətbiqi baxımından dünyada yeganə xalı hesab edilə bilər. Bəzəkləri müxtəlif gül-çiçək rəsmlərindən ibarət olan bu xalı öz rəngarəngliyi və buradakı rənglərin bir-birilə olan vəhdəti ilə insanı valeh edir. Xalının ən gözəl hissəsini onun mərkə-zində yerləşən çoxguşəli mozaikaya bənzər qönçə təşkil edir. Qönçə-yə hər tərəfdən yaşıl, qırmızı, san rəngli 16 kiçik dairəvi qübbə bənd edilmişdir. Xalıda rənglər ardıcıl olaraq, rəngşünaslıq elminin tələbləri əsasında elə düzgün yerləşdirilmişdir ki, böyük qönçə günəşi, ətrafın-dakı kiçik qübbələr isə şüalan xatırladır. Bundan əlavə, xahnm ara sa-həsinin yuxan və aşağı hissələrində böyük zəngin bəzəkli qırmızı və şəkəri rəngli qəndil təsviri də vardır. Bu xalı təkcə ideal gözəlliyi de-yil, orta əsr mistik-fəlsəfi baxışlann təcəssümünü də əks etdirir. Mə-sələn, ortadakı turuncun sarı rəngli olması işıq saçan günəşə işarədir. Xalçanın ara sahə yerliyinin qaraya çalan sürməyi rəngdə veril-məsi göy üzünü ifadə edir. Sürməyi yerlik üzərində səpələnən şəkəri, qır-mızı omamentlər isə ulduzlara işarədir. Bundan əlavə xalının həm kompozisiya cəhətdən, həm də rənginə görə əsasən 7 planetə xas olan 7 intensiv rəngdən istifadə edilməsi və s. bəzək elementləri müxtəlif mə'nalar kəsb edir.

"Şeyx Səfı" xalısı "türk baf' texniki üslubunda toxunmuşdur. On-da 32 milyon ilmə vardır. Bədii və texnoloji xüsusiyyətine görə Təb-riz xalçaçılıq məktəbinin məhsuludur. Axınncı məlumatlara görə onun eni 5,34 metr, uzunu 11,5 metrdir. Ümumi ölçüsü 61 kv.metrdir.

Bu nümunəvi xarakter kəsb edən sənət əsəri barədə dünya alimlə-ri çoxlu elmi araşdırmalar aparmışlar. Lakin bu yaxınlarda məlum ol-muşdur ki, bu "Şeyx Səfı" xalısınm iki əlavə variantlan da olmuşdur.

Onlardan nisbətən kiçik olan ikincisi hazırda Los-Ancelosun Kauntay qraf muzeyində saxlanılır.

Aparılmış elmi araşdırmalar göstərir ki, bu xalı da Viktoriya və Albert muzeyində saxlanılan xalı kimi Ərdəbildə Şeyx Səfı məqbərə-sində olmuş, onunla birlikdə məscidin tə'miri ilə əlaqədar xərcləri ödəmək üçün həmin şirkətə satılmışdır.

Deməli, bu xalı da elə vaxtlar İngiltərəyə gətirilib, birincisi Viktor və Albert muzeyində satıhb və hazırda orada nümayiş etdirilir, ikincisi isə Los-Ancelosda Kauntay muzeyindədir. Əldə edilən məlumatlara görə ikinci xalını Mançester sakini Ziqler hələ o vaxtlar amerikalı kol-leksioner Yerkisə satır və onu bir müddət nümayiş etdirməməsini xa-hiş edir. Yerkis vəfat etdikdən sonra bu xahnı Los-Ancelos muzeyi alıb nümayiş etdirir.

Lakin bununla "Şeyx Səfı" adını almış eyni kompozisiya və bədii tərtibatlı xalının tarixi bitmir. Lap bu yaxınlarda "Reyters" və s. infor-masiya agentliklərinin verdikləri mə'lumata görə Şeyx Səfı xalısının yeni, *yəni* üçüncü variantı da aşkar edilmişdir. Onu İran İslam Res-publikasının rəsmi dairələri 4,5 milyon dollara bir şəxsi kolleksioner-dən alıb İrana gətirmişlər.

Bu yaxınlarda bu xalılarla əlaqədar yeni bir sensasiya da olmuş-dur. Bu yeni xəbər xalıların tarixi ilə əlaqədardır.

İnformasiya agentliklərinin verdikləri mə'lumata görə İranın Yəzd vilayətində yaşayan bir din xadimi onda olan tarixi sənədləri araşdırar-kən, onların arasında Şah İsmayıd Xətainin Şeyx Səfı məqbərəsinə nəzir verdiyi sənət abidələrindən bəhs edən bir sənəd aşkar etmişdir. Güman etmək olar ki, bu üç xalının üçünü də bu müqəddəs yerə hökmdar özü nəzir vermişdir.

.

***Summary***

**DECORATIVE CRAFTSMANSHIP IN SHAH ISMAYIL'S PERIOD**

***Rasim AFANDI***
***(Azerbaijan)***

The period of Shah Ismayil's rule is considered the richest and the most developed period of the craftsmanship.

Almost in all the regions of Safavi state worked a great number of weavers, jewelers, coppersmiths, potters, arm makers and others. The craftsmen who were

popular abroad had manufactured the handicraft wares. The hand-made goods carried out the character of not an ordinary everyday ware, but a high art character, as the well. Known artists of the period took an active part in their manufacturing.

Almost all the kinds of craftsmanship were developed in the Safavi period. But the wearing was more popular and had an international character. That is why the most brilliant patterns of it are demonstrated in the museums of America, Europe, and Asia.

The textile and carpets were manufactured mostly in Tabriz, Ardabil, Sha-makhi, Ganja and Garabagh. The travelers from England and France as AJenkinson, T.Olkok, Sh.Shardin and others had stated the fact that there were more than 100 weaving patterns.

A vital place among the population had the carpet- making in the XVI c. The carpets had been woven in Tabriz were popular all over the world, e.g. the carpet "Sheykh Safi" (11.50 x 5.34) with 61 total square meter. According to the original sources the carpet was preserved in the "Sheykh Safi" tomb at that time. In 1883 with the restoration of the tomb the carpet was sailed to the English firm Segler in Tebriz and in 1893 was bought for the Victoria and Albert Museum.

Recently it became known that there were two more variants of the carpet. One of them is in the Cauntay Museum in Los Angeles and the other was bought for 45 million dollars from the private collection by Iran Islam Republic and brought to Tehran.